Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın Qarabağ ümidləri tam qırılır - Kreml İrəvana konkret mesajlar verməyə başladı

**İşğalçı Ermənistanda Dağlıq Qarabağ münaqişəsi ətrafında yaranan son vəziyyətlə bağlı Azərbaycanın bu prosesdə artıq qələbə çalması ilə bağlı fikirlər yayılmağa başlayıb. Hesab edilir ki, yaxın tezlikdə işğal altındakı ərazilərin Azərbaycana qaytarılması prosesinə start veriləcək. Elə erməni siyasi analitik Akop Badalyan da bunun qaçılmaz olduğunu bildirir.**

Badalyan qeyd edir ki, Azərbaycan tərəfi burada ustalıqla gedişlər edərək Rusiya faktorunu uğurla neytrallaşdırıb:"Hətta Moskva bu gün açıq şəkildə Azərbaycanpərəst bir mövqe sərgiləyir. Ermənistana münasibətdə isə vəziyyət bunun əksidir. Rusiya xarici işlər naziri Sergey Lavrovun Qarabağ münaqişəsinin tənzimlənməsi və Ermənistandakı erməni-rus problemləri ilə bağlı açıqlamalarından sonra baş nazirlə "böyük sahib" sayılan Kreml arasındakı toqquşmalar və daxili siyasi qarşıdurmalar kəskinləşməyə başladı. Ermənistanın siyasi həyatındakı bu gözlənilməz gərginlik Lavrovun açıqlamaları ilə üst-üstə düşür". Badalyan onu da qeyd edib ki, əslində rusiyalı nazirin açıqlamaları Ermənistanda daxili siyasi gərginlik və yaş qarşıdurmanı daha da artırdı:"Lavrovun bu açıqlamalarının əsas hədəfinin bu olduğunu demək çətindir, amma daxildə siyasi gərginliyin bundan sonra artması da göz önündədir. Eyni zamanda, Rusiyanın bu təzyiqlərinə qarşı Ermənistanın "immunitet sistemi"nin işləyib-işləməməsi ilə bağlı sual ortaya çıxa bilər ki, bu da kəskinləşmədə özünü göstərir. Baş verənlərdən bu qənaətə gəlmək olar ki, Ermənistanın institusional bir immunitet sisteminə ehtiyacı var. Amma Ermənistanın immun müdafiəsinin institusional səviyyəsinə nə vaxt keçəcəyi hələ məlum deyil. Kəskinləşmə ilə Lavrovun ifadələri arasındakı əlaqəyə gəlincə, pandemiyanı da nəzərə alsaq, Ermənistan həm ənənəvi, həm də yeni problemlərlə üzləşir. Rusiya bu mənada "universal" təhdid mənbəyidir və burada Lavrov amili, əlbəttə, diqqət çəkir.

Bütün problem ondadır ki, hakimiyyət məsələsində Rusiya özü də güclü daxili və xarici təzyiq altında qalmaqdadır. Böyük ehtimalla, Lavrovun bu açıqlaması bu nöqteyi-nəzərdən Rusiyanın Ermənistanı itirə biləcəyi narahatlığından irəli gəlir. Onun bu narahatlığı istər pandemiyanın, istərsə də Ermənistanın yeni hakimiyyətinin yaratdığı narahtlıqlara əsaslanır. Dünyada yeni geosiyasi mənzərənin yaranması Moskvada təkcə Ermənistanla yox, ümumən Qafqazla bağlı ciddi təşvişlərə səbəb olur". Badalyan Rusiyanın Ermənistanın əlindən çıxması ilə razılaşmaq istəmədiyini bildirib:"Rusiya Ermənistanın taleyini mərcə qoyub. Bəs, Rusiya bundan qazanclı çıxa biləcəkmi? Bu oyunlara davam edəcəksə, o zaman "böyük və güclü rus"un boynunu bükməyə yaxın olan Azərbaycanın qələbəsinə Ermənistan da hazır olmalıdır". Ermənistan parlamentinin keçmiş deputatı Ruben Hakobyan da qeyd edir ki, Bakı Kreml üçün indi olduqca vacib tərəfdaşa çevrilib:"Rusiya-Azərbaycan münasibətləri hazırda Ermənistan-Rusiya münasibətlərindən daha çox stratejidir". Erməni siyasi xadim bu münasibətləri təhlükəli olaraq qiymətləndirib:"Qeyd etmək lazımdır ki, buna böyük ölçüdə məhz Ermənistan baş naziri Nikol Paşinyan töhfə verib".

Rusiyada fəaliyyət göstərən "Qafqaz" geosiyasi klubunun direktoru Nikolay Banin isə hesab edir ki, erməni tərəfinin narahatlığı heç də əbəs deyil. O, Ermənistanın getdikcə daha çətin vəziyyətə düşdüyünü bildirir:"Aydındır ki, Rusiya xarici işlər naziri Lavrovun bəyanatı İrəvanda qeyri-müəyyən vəziyyət yaradıb".

Banin qeyd edib ki, bu ilk növbədə tələskənliyi açıq şəkildə ortaya qoyub və Ermənistan xarici işlər nazirinin son mətbuat konfransı bu tələskənliklə təşkil olunub:"Bununla birlikdə aydındır ki, onun çıxışı cavablar səslənməsindən daha çox suallar yaratdı. Baş nazir Nikol Paşinyan bunlara cavab verməlidir, çünki Qarabağ münaqişəsində dönüş nöqtəsi əldə etmək və həmçinin münaqişənin həll prosesini şəffaflığın yeni səviyyəsinə çatdırmaq haqqında ucadan səslənən bəyanatlar 2018-ci ildə onun hakimiyyətə gəlməsinin heç də az önəmli olmayan elementlərindən idi. Gördüyümüz kimi, nə birini, nə də digərini həyata keçirməyiblər. Bu səbəbdən Ermənistana Qarabağ təzyiqləri artır. İrəvanın geri çəkilməyə yolu qalmayıb". Digər tərəfdən, Nikol Paşinyan ölkə əhalisinə boyun olduğu firavan həyatı da yarada bilmir. Bunun başlıca səbəbi, dəfələrlə deyildiyi kimi, Rusiya amilidir. Ermənistan bütün sahələr üzrə bu ölkədən asılıdır. Bu mənada Rusiya təzyiqi Ermənistan üçün çox şey deməkdir və Qarabağ məsələsində də effekt verə bilər. Elə Azərbaycan üçün bu fonda maraq doğuran əsas məqam da maraqlı qüvvələrin, o cümlədən Rusiyanın Qarabağ məsələsinə obyektiv yanaşma sərgiləyib onun həllinin tezləşməsinə töhfə verməsidir. Hazırda böyük dövlətlər, eləcə də Minsk Qrupuna həmsədrlik edənlər konfliktə bağlı status-kvonun dəyişməsinin vacib olduğunu bildirir. Burada son dövrlərdə Moskvanın fəallaşması isə irəvan üçün daha böyük problem sayılır. Qeyd edək ki, bundan əvvəl də əksər erməni politoloqlar tərəfindən Rusiyanın Qarabağ məsələsində Ermənistana təzyiqlərini artırması barədə çoxsaylı fikirlər səsləndirilib. Məsələn, onlardan biri olan politoloq Stepan Qriqoryan bildirir ki, Dağlıq Qarabağ münaqişəsinin həllində güzəştə getməsi üçün Ermənistana təzyiqlər var. Onun sözlərinə görə, Rusiya regional məsələlərdə Azərbaycanın dəstəyini əldə etmək üçün Ermənistanın Qarabağdan çıxmasını istəyir:"Bunun hansı formada baş verəcəyini, bir neçə rayon, yaxud ümumiyyətlə bütün ərazilərin verilməli olduğunu deyə bilmərik. Amma bütün hallarda, hətta xırda güzəşt də Qarabağın əldən çıxması deməkdir. İndi Ermənistan zəif tərəfdir və burada bütün sahələrə - iqtisadiyyata, sənayeyə, energetikaya, təhlükəsizliyə Rusiya nəzarət edir. Rusiya bilir ki, bizə qarşı ciddi təsir imkanları var". Beləliklə, qeyd edilənlərdən aydın görünür ki, Rusiyanın indiki siyasəti Ermənistanın maraqları ilə ziddiyyət təşkil edir. Hesab edilir ki, Moskva Qarabağ məsələsində bir qədər də aktiv fəaliyyətə keçsə, Ermənistan nəhayət Qarabağ məsələsində konstruktiv mövqe sərgiləyə bilər. Çünki İrəvan Moskvaya hansısa ciddi müqavimət göstərmək imkanında deyil.

Ermənistanın Xristian-Demokrat Partiyasının lideri Levon Şirinyan isə hesab edir ki, Kreml indiki halda həm də Nikol Paşinyana dərs verməyi düşünür:"Kreml hələ də Ermənistandakı hakimiyyət dəyişikliyini həzm edə bilmir". Şirinyanın Sergey Lavrovun Azərbaycanın işğal edilmiş bölgələrinin azad edilməsi ilə bağlı son çağırışı və əvvəllər Ermənistan hakimiyyəti əleyhinə səsləndirdiyi fikirlərə münasibəti isə belə olub: "Ermənistandakı hakimiyyət dəyişikliyini həzm edə bilmirlər. Çünki həmişə Rusiyada deyirlər ki, baxın, onlar üçün nə etmişik. Amma fakt budur ki, Ermənistan xalqı dəyişikliyə getdi və ruslar bunu qəbul etmirlər. Seçimlərimizlə barışmalı və bizimlə ortaq olmalı, vassal münasibətləri qurmamalıdırlar. Vassallıq Serj Sarkisyanın öz gücünü itirməsi ilə öldü. Rusiya artıq Ermənistanın onun vassalı olmadığı faktı ilə barışmalıdır. Ermənistan son 300 ildə ilk dəfə bərabər münasibətlər üçün ərizə təqdim etdi və bu onlar üçün qeyri-adi haldır. Bu səbəbdən Lavrov son açıqlamasında Ermənistanın işğal etdiyi Dağlıq Qarabağ ətrafındakı rayonların Azərbaycana qaytarılmasının vacibliyindən danışıb. Bundan əvvəl isə Sergey Lavrov Nikol Paşinyan hökumətini həbsdə olan sabiq prezident Robert Köçəryanı azad etməyə çağırmışdı. Rəsmi İrəvan onun bu tələbini Ermənistanın daxili işlərinə qarışmaq cəhdi kimi dəyərləndirərək qəbul etməyib. Rusiya bunu da unutmur və Kremlin təzyiqlərinin daha da artması gözləniləndir". Yeri gəlmişkən xatırladaq ki, bir neçə gün əvvəl Ermənistanın ikinci prezidenti Robert Köçəryanın ofisinin rəhbəri Viktor Soqomonyan verdiyi müsahibədə Köçəryanın məhkəməsinin Moskva üçün böyük əhəmiyyət kəsb etdiyinə görə Ermənistan-Rusiya münasibətlərinə mənfi təsir göstərəcəyini bildirmişdi. Bu fonda da Kremlin İrəvana təzyiqləri artırmaqda davam etməsi gözlənilir. Amma əsas təzyiqin indiki halda Qarabağ məsələsi üzərindən olması proqnozlaşdırılır. Rusiya İctimai Siyasi Araşdırmalar Mərkəzinin direktoru Vladimir Yevseyev isə hesab edir ki, Moskva həm də Ermənistanın tərs mövqeyi üzündən Qarabağda hərbi əməliyyatların yenilənməsini istəmir:"Bunun mühüm səbəbləri var. Çünki Dağlıq Qarabağ müharibəsi başlasa, Türkiyə və Rusiya kimi oyunçular da bura cəlb ediləcək. Moskva isə bunu istəmir.

Xüsusən də Azərbaycan və Türkiyə ilə münasibətlərinin yüksək səviyyədə olduğu bir vaxtda. Bu mənada, Kreml danışıqlar yolu ilə münaqişənin gedişində dəyişikliklər olmasında maraqlıdır. Bu dəyişikliklərin yolu isə Ermənistana təzyiqlərin artırılmasından keçir. İndiki halda belə qənaətə gəlmək olar ki, Ermənistana təzyiq etməyəcəklərsə, əlbəttə ki, Azərbaycanın əl-qolu açıq olacaq. Çünki Azərbaycan öz torpaqlarının işğaldan azad edilməsinə nail olmaq istəyir və bunu heç vaxt gündəmdən çıxarmayıb".

Hər halda, görünən həm də budur ki, artıq Kreml də İrəvana lazımı mesajlar verir. Sadəcə, indi erməni tərəfinin bundan lazımı nəticə çıxarması olduqca mühümdür. Əks təqdirdə məsələnin hərb yolu ilə çözümünü tapması qaçılmaz sayılır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**